*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 452-464*

https://doi.org/10.62837/2026.5.452

**AFƏT İLYAS QIZI RƏFIYEVA,**
***filologiya üzrə fəlsəfə doktoru***
***Dövlət Məşğulluq Agentliyinin böyük mütəxəssisi***
***afat.rafiyeva@gmail.com***

# AZƏRBAYCAN FOLKLORUNDA PEŞƏ VƏ PEŞƏ HAZIRLIĞININ TƏMƏL PRİNSİPLƏRİNİN BƏDİİ TƏCƏSSÜMÜ
## (əmək nəğmələri, nağıl və dastan janrları əsasında)

## XÜLASƏ

***Açar sözlər: folklor, peşə, sənət, məşğulluq, əmək, peşə hazırlığı***

Ən qədim dövrlərdən müxtəlif peşələrə yiyələnərək məşğulluğun təmin olunması bəşəriyyətin fundamental qayğılarından biri olmuşdur. İşsiz və işaxtaran şəxslərin məşğulluğunu təmin etmək məqsədilə onların müxtəlif peşə sahələri üzrə təhsil alması bu gün ölkəmizdə dövlət siyasətinin prioritet istiqamətlərdən biri kimi özünü göstərir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi bu gün əmək bazarında aktual olan 175 peşə-ixtisas sahəsi üzrə peşə hazırlığı təşkil edir və bu peşələr əmək bazarının tələblərinə uyğun müntəzəm olaraq yenilənir. Məqalə müəllifi bu reallıqları nəzərə alaraq Azərbaycan folklorunda müxtəlif peşələrin və peşə hazırlığının tarixi-mədəni əsaslarını əmək nəğmələri, nağıl və dastan janrları əsasında tədqiq etmişdir. Eləcə də işsizliyin və məşğulluğun təmin olunmasının tarixi-mədəni köklərini və müasir əhəmiyyətini nəzərə alaraq, müəllif peşə-sənət sahələrinin xalq yaddaşında və folklorunda necə əks olunduğunu araşdırmışdır.

Tədqiqat işində xalq yaradıcılığında əməkçi insan obrazının sosial-mənəvi prinsipləri və ədəbi-estetik mahiyyəti elmi-nəzəri baxımdan təhlil edilir. Əmək nəğmələrində, nağıl və dastanlarda peşə sahələri haqqında geniş məlumatlarla yanaşı, əmək fəaliyyətinin tarixi, peşələrin yaranması və inkişafı, həmçinin peşə hazırlığının əhəmiyyətinin xalq təfəkküründəki yeri elmi və bədii faktlarla göstərilir. Qeyd edək ki, peşələr və onların ədəbiyyatda yeri mövzusunda Azərbaycan şifahi xalq ədəbiyyatında müstəqil araşdırma işi yoxdur. Məqalə bu sahədə yenilik olacaqdır.

Müəllif Dövlət Məşğulluq Agentliyinin müasir dövrdə əmək bazarında aktual olan peşə-ixtisas sahələrinə yönəlmiş fəaliyyətinə diqqət çəkərək, folklor nümunələrində peşə təhsilinin tarixi-mədəni əsaslarının dərkini və əhəmiyyətini vurğulayır. Beləliklə, məqalə peşə hazırlığının yalnız müasir iqtisadi-sosial proseslərdə deyil, həm də xalqın mənəvi və mədəni inkişafında vacib yer tutduğunu əks etdirir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 452-464*

**AFET RAFIYEVA**

## SUMMARY

## ARTISTIC EMBODIMENT OF THE BASIC PRINCIPLES OF PROFESSION AND PROFESSIONAL PREPARATION IN AZERBAIJAN FOLKLORE

### (Based on the genres of labor songs, fairy tales and epics)

***Key words: folklore, profession, art, employment, labor, vocational training***

Since ancient times, securing employment through the acquisition of various professions has been one of the fundamental concerns of humanity. Today, providing vocational education to unemployed individuals and jobseekers to ensure their employment stands as a priority of the state policy in our country. The State Employment Agency, under the Ministry of Labour and Social Protection of the Population, currently organizes vocational training in 175 specialized fields relevant to the labor market, which are regularly updated in accordance with market demands. Considering these realities, the author has investigated the historical-cultural foundations of various professions and vocational training within Azerbaijani folklore, specifically through the lenses of labor songs, folktales, and dastan (epic) genres. Furthermore, taking into account the historical-cultural roots and contemporary importance of addressing unemployment and ensuring employment, the author examines how professional fields are reflected in the collective memory and folklore of the people.

This research paper provides a theoretical analysis of the socio-moral principles and literary-aesthetic essence of the “working man” archetype in folk creativity. Alongside extensive information on various occupations in labor songs, folktales, and epics, the study utilizes scientific and artistic facts to demonstrate the history of labor activities, the emergence and evolution of professions, and the significance of vocational training within the folk mindset. It should be noted that there is no independent research specifically dedicated to the study of professions and their representation in Azerbaijani oral folk literature; thus, this article represents a novel contribution to the field. By drawing attention to the State Employment Agency's contemporary activities focused on relevant professional specializations in the labor market, the author emphasizes the understanding and significance of the historical-cultural foundations of vocational education in folklore. Consequently, the article reflects that vocational training occupies a vital place not only in modern socio-economic processes but also in the spiritual and cultural development of the nation.

# РЕЗЮМЕ
# ХУДОЖЕСТВЕННОЕ ВОПЛОЩЕНИЕ ОСНОВОПОЛАГАЮЩИХ ПРИНЦИПОВ ПРОФЕССИИ И ПРОФЕССИОНАЛЬНОЙ ПОДГОТОВКИ В АЗЕРБАЙДЖАНСКОМ ФОЛЬКЛОРЕ
## (на основе трудовых песен, жанров сказок и дастанов)

***Ключевые слова: фольклор, профессия, искусство, занятость, труд, профессиональная подготовка***

С древнейших времен обеспечение занятости посредством овладения различными профессиями является одной из фундаментальных задач человечества. В настоящее время обучение безработных и ищущих работу лиц различным профессиональным навыкам с целью их трудоустройства выступает в качестве одного из приоритетных направлений государственной политики нашей страны. Государственное агентство занятости при Министерстве труда и социальной защиты населения организует профессиональную подготовку по 175 актуальным на рынке труда специальностям, перечень которых регулярно обновляется в соответствии с требованиями современной экономики. Учитывая данные реалии, автор исследует историко-культурные основы различных профессий и профессионального обучения в азербайджанском фольклоре на базе трудовых песен, сказок и дастанов. Принимая во внимание исторические корни и современную значимость вопросов борьбы с безработицей и обеспечения занятости, в статье анализируется отражение ремесел и профессий в народной памяти.

В исследовании с научно-теоретической точки зрения анализируются социально-нравственные принципы и литературно-эстетическая сущность образа человека труда в народном творчестве. Наряду с обширными сведениями о профессиональных сферах в трудовых песнях, сказках и эпических произведениях, на основе научных и художественных фактов демонстрируется история трудовой деятельности, возникновение и развитие профессий, а также место профессиональной подготовки в народном мышлении. Следует отметить, что в азербайджанской устной народной литературе отсутствуют самостоятельные исследования, посвященные теме профессий и их места в литературе, что обуславливает научную новизну данной статьи. Акцентируя внимание на деятельности Государственного агентства занятости по подготовке кадров в актуальных сферах, автор подчеркивает важность осознания историко-культурных основ профессионального образования в фольклорных образцах. Таким образом, в статье обосновывается, что профессиональная подготовка занимает важное место не только в современных социально-экономических процессах, но и в духовном и культурном развитии народа.

İnsan yarandığı gündən hansısa bir sahə üzrə ixtisaslaşmaq məsələsi də gündəmə gəlib. Təsadüfi deyil ki, insanın təbiətlə mübarizəsi subyektlər arasında funksional vəzifə – əmək bölgüsünü qaçınılmaz etmişdir. Məsələn, qadın ocağın qoruyucusu, yığıcı və toplyacı idisə, kişi ovçu və vəhşi heyvanın əhilləşdiricisi rolunda çıxış edirdi. Bu ilkin Cəmiyyət inkişaf etdikcə, bu sahələr arasından ayrı-ayrı peşə və sənət sahələri ayrılmağa başladı: əkinçilər, maldarlar, ustalar, tacirlər, kahinlər və s. Cəmiyyətin inkişafı insandan bir və ya bir neçə sahə üzrə daha spesifik biliklərə yiyələnməyi tələb edirdi. Bunlar insanların yaşamaq və gündəlik ehtiyaclarını təmin etmək, təbiətlə mübarizədən qalib çıxmaq üçün qeyri-iradi şəkildə yiyələndikləri bacarıqlar idi. Bu əmək bölgüsü həm də "vəhşilik dövründən sivilizasiyaya" keçidin əsas indikatoru sayıla bilər. Beləliklə, əsası 10-12 min il əvvəl mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçidlə qoyulmuş "peşə" anlayışı, müasir mənasına yaxın mənanı yalnız Orta əsrlər Avropasındakı sənətkar sexləri və gildiyaların yaranması ilə qazandı. Sənaye inqilabından sonra isə "peşə" anlayışı elmi xarakter qazandı [12].

Cəmiyyətdə münasibətlər mürəkkəbləşdikcə, əhalinin sayı artdıqca, müxtəlif istiqamətlərdə ixtisaslaşmaq zərurəti də meydana çıxdı. Əmək insan münasibətlərinin yeni mərhələyə keçid etməsində yenə də aparıcı rol oynadı. İlk peşələr kənd təsərrüfatı ilə bağlı sadə peşələr olsa da, sonradan xüsusi bacarıq, səriştə və vərdişlər tələb edən spesifik peşələr meydana çıxdı və cəmiyyətin sürətli inkişafı bu prosesin davamlı olmasını zəruri edir. "Peşə" sözü fars dilindən tərcümədə "iş, məşğuliyyət, sənət" anlamını verir [3, s. 587]. Peşələrin bu gün əvvəllər olduğu kimi kortəbii deyil, bəlli kriteriyaları əhatə etməsi qanunvericiliklə də dəstəklənir: "Peşə – insanın fiziki qüvvəsi və səylərinin tətbiq sahəsi olub, xüsusi hazırlıq və iş təcrübəsi nəticəsində nəzəri biliklərə və təcrübi vərdişlərə yiyələnmiş insanın əmək fəaliyyəti"dir [13]. Bu gün Azərbaycan Respublikasında aktiv məşğulluq tədbirlərinin ən mühüm istiqamətlərindən biri peşə hazırlığıdır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi peşə hazırlığı sahəsinə səmərəli töfhələr verir. Agentlik tərəfindən müəyyən edilmiş 175 aktual peşə hazırlığı üzrə müxtəlif peşə hazırlığı müəssisələrində və özəl tədris mərkəzlərində çoxşaxəli işlər aparılır, kurslar təşkil olunur və müdavimlərə müəyyən edilmiş peşələrin prioritet istiqamətləri üzrə sistemli tədris aparılır və təlimi başa vuran vətəndaşların işlə təmin olunmasına dəstək göstərilir. Bu da peşə hazırlığını mühüm məşğulluq tədbiri kimi ön plana çıxarır.

Məlumdur ki, yazılı ədəbiyyat öz mövzusunun bir çoxunu yaşı minilliklərə söykənən şifahi xalq yaradıcılığından götürür. Əhalinin məşğulluğu məsələsi bütün dövrlərdə prioritet istiqamət olub. Buna görə də folklorun müxtəlif növlərində və janrlarında əməkçi insanın, eləcə də müxtəlif peşə adamlarının obrazı xalq içərisindən çıxmış xüsusi istedadı olan sənətkarlar tərəfindən yüksək bədii-estetik duyğularla və sənətkar məharəti ilə ifadə olunmuşdur. İstər mərasim və mövsüm

nəğmələrində, əfasənə, rəvayət, nağıl, dastanlarımızda, istərsə də xalq oyun və tamaşalarında müxtəlif peşə-sənət adamlarının obrazı yaradılmış, onların peşələrinin özünəməxsus xüsusiyyətlərinə diqqət cəlb edilmişdir. Bir baxımdan folklor əməkçi insanın fəaliyyətini bədii-estetik ideal səviyyəsinə qaldıran mənəvi laboratoriya funksiyasının yerinə yetirir. Yuxarıda haqqında bəhs etdiyimiz 175 aktual peşədən bir çoxu hələ qədim dövrlərdə də prioritet peşələr sayılmış və folklor nümunələrində öz əksini tapmışdır. Bu baxımdan Azərbaycan folklorunda ayrı-ayrı peşə və sənət adamlarının (əkinçi, çoban, naxırçı, tacir, həkim, bənna, toxucu, dərzi, bağban, çörəkçi, şərabçı, qəssab, xarrat, dülgər və s.) obrazlarına rast gəlmək mümkündür. Belə obrazlar sistemində əkinçi obrazının özünəməxsus yeri vardır. Fikrimizcə, əkinçi obrazı milli-mənəvi düşüncəmizdə təbiətlə harmoniyanın, məhsuldarlığın və yaradıcılığın rəmzi kimi mərkəzi mövqe tutur. Məlumdur ki, ulu əcdadlarımız təbiətlə təkbətək mübarizə şəraitində öz yaşayışını təmin etmək üçün mövcud olduğu coğrafi relyefdən, təbii qaynaqlardan asılı olaraq əmək prosesində müxtəlif ilkin bədii örnəklər yaratmışdır. Bu örnəklərin yaranmasının sosial səbəbləri və ədəbi-bədii zəmini ilk növbədə ayrı-ayrı peşə və məşğuliyyətlərlə əlaqədar olmuşdur. “Peşə və məşğuliyyətlər ulu əcdadın gündəlik həyatında – hələ vəhşilikdən uzaqlaşıb yarımvəhşilik dövründə özünü göstərməyə başlamışdır. Qədim xalqların vəhşilik dövrü antropoloji inkişafını öyrənən Avropa antorpoloqlarının müşahidəsinə görə, “nitq bacarıqlarına yiyələnən bir çox qədim etnosların mədəniyyətə doğru irəliləyişinin erkən işləri elə onların müxtəlif ritual, əmək-peşə və ovçuluq düşüncələri ilə bağlı nəğmələrində müşahidə olunur” (Е.М. Мелетинский. Первобытные истоки словесного искусства. Москва, 1972, с. 21)” [10, s. 218]. Bu baxımdan folklor nümunələrinin tədqiqi əslində peşə hazırlığının genetik kodlarını və milli mədəniyyətin fəlsəfəsini öyrənmək deməkdir.

Problemə bu aspektdən yanaşsaq, müxtəlif peşələrin, o cümlədən əkinçi obrazının ilkin əmək nəğmələrində önəmli yer tutduğunu müəyyən etmək çətin deyildir. Azərbaycanda əlverişli təbii-coğrafi şərait əkinçiliyin inkişafında mühüm rol oynamışdır. Bu ənənəvi təsərrüfat forması uyğun olaraq maldarlığın və heyvandarlığın inkişafına da güclü təsir göstərmişdir. Bu günümüzə gəlib çatan əkinçi nəğmələrində birgə iş prosesinin ahəngdarlığı, əkinçinin istək və arzuları əks olunmuşdur. Əkin, səpin və biçin zamanı oxunan əkinçi nəğmələri tarixin müxtəlif mərhələlərində məzmun və forma cəhətdən təkmilləşərək bu peşənin zəruriliyinin təcəssümü olmaqla yanaşı, həm də sonrakı dövrlərdə xalqımızın şifahi epik ənənələrinin digər janrlarının yaranmasında münbit zəmin rolunu oynamışdır. Başqa sözlə, əkinçilik sənəti ilə bağlı yaranan ilk əmək nəğmələri (holavarlar) müəyyən süjet, obraz və motivlərlə zənginləşərək zəhmətsevərliyi, peşə hazırlığının müxtəlif aspektlərini özündə əks etdiən əsərlərin meydana gəlməsini şərtləndirmişdir. “Tənbəl qardaş” və yaxud “Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş” adlı xalq tamaşasına nəzər salaq. Üç səhnədən ibarət olan bu məzhəkdə halal zəhməti

həyatının əsas mənasına çevirən çalışqan qardaşın xeyir-bərəkət gətirən əməyi maraqlı detallarla təsvir olunursa, digər qardaşın tənbəlliyi, müxtəlif bəhanələrlə işdən boyun qaçırması yumoristik gülüşlə tənqid olunur. Tamaşanın sonunda tənbəl qardaşın peşman olması, zəhmətkeş qardaşın onu öz təsərrüfatına şərik etməsi tamaşaçıda nikbin hisslər doğurur. Eləcə də əkinçiliklə məşğul olub güzəranını təmin edən insanların əmək prosesində ağır əziyyətlərə qatlaşıb yüksək məhsul qazanmaları əkinçilik peşəsinə böyük rəğbət oyadır.

Qeyd edək ki, bir sıra atalar sözü və məsəllərdə də əkinçilik və əkin-biçin məhsulları ilə bağlı real düşüncələr əks olunmuşdur. “Kotan nə bilir qayış nə çəkir?”, “Dəyirmanda buğda qurutmazlar”, “Samanın tüstüsü göz çıxardar”, “Əkiblər yemişik, əkirik yeyərlər”, “Yaz əkinçi, qış dilənçi”, “Əkəndə əkməyən, xırmanda ağlar”, “Tərə yeyən də yaza çıxar, kərə yeyən də” [1, s. 105, 151, 205, 221, 239] və s. kimi örnəklər buna nümunə ola bilər. Əkin-biçin təsərrüfat işlərinin, peşə və məşğuliyyətin nəticələrini bədiiləşdirərək ümumiləşdirən ulularımızın yaratdıqları bu cür dərin mənalı fikirlər zəhmətsevərliyi, öz işinin ustası olmağı, yiyələndiyi peşənin incəliklərini bilməyi mükəmməl şəkildə ifadə edir. Digər bir tərəfdən müəyyən peşə öyrənməyin əhəmiyyəti yalnız əkinçiliklə məhdudlaşmır, geniş ümumiləşdirmə vasitəsilə bütün peşələrə məsuliyyət və sevgi hissi oyadılır.

Azərbaycan xalqının tarixi keçmişində deyil, çağdaş dövrümüzdə də bir sıra peşə və məşğuliyyət sahələri, təsərrüfatla bağlı sənət-peşə istiqamətləri mühüm yer tutur. Araşdırmalar göstərir ki, qoyunçuluq xalqımızın təsərrüfat həyatında aparıcı sahələrdən biri kimi inkişaf etmiş, hətta müqəddəsləşdirilərək kult səviyyəsinə yüksəldilmişdir. Çoban peşəsinin hörmətli peşələrdən biri olması folklorumuzda qoyunçuluqla bağlı yaranmış əmək nəğmələrinin – sayaçı sözlərin başlıca ideya-məzmun istiqamətlərini təşkil edir. Azərbaycan ailəsinin başlıca gəlir mənbəyini təşkil edən qoyunçuluq bol miqdarda və yüksək kolorili ət, süd, yun, ağartı məhsulları, bir sözlə, var-dövlət, maddi-mənəvi sərvət deməkdir. Sayaçı nəğmələrində məhz bu cəhətlər poetikləşərək bu günümüzdə də bədii əhəmiyyəti ilə yanaşı, sosial aktuallığını və tarixi-mədəni effektivliyini mühafizə edib saxlayır:

Qoyunlu evlər gördüm,
Qurulu yaya bənzər.
Qoyunsuz evlər gördüm,
Qurumuş çaya bənzər. [11]

Sayaçı nəğmələrinin mühüm bir qismini təşkil edən çobanlar haqqındakı mahnılarda bu peşə sahibləri cəmiyyət üçün çox faydalı, xeyirxah və igid insanlar kimi tərənnüm olunur:

Göydə gəzən buludlar
Yorğanıdır çobanın.
Yastı-yastı qayalar
Yumruğudur çobanın.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 452-464*

Əlindəki dəyənək
Qalxanıdır çobanın.
Yanındakı boz köpək
Yoldaşıdır çobanın. [11]

Nağıl və dastanlarımızda çoban obrazının qəhrəman, səxavətli, müdrik və xeyirxah sifətlərlə təsvir olunması obrazın özünün daxili-sosial mahiyyətindən doğur. "Əsli-Kərəm" dastanında Kərəmin çobanla xəbərləşməsi, "Alı xan və Pəri xanım"da Budaq çobanın həqiqətləri üzə çıxarması, "Çobanın duası" nağılında bu surətin fərasəti və diribaşlığı, "Üzü ağ olan çoban" qaravəllisində çobanın hazırcavablığı və s. epizodlar çoban obrazının xalq yaradıcılığında ədəbi-estetik və sosial-fəlsəfi yerini müəyyənləşdirir.

Xalqımızın milli-etnik təsərrüfatının, həyat və məişətinin təşəkkülü və inkişafında qoyunçuluqla bağlı sahələrinin əhəmiyyəti həm də qeyd etdiyimiz kimi, təbii-coğrafi şəraitlə sıx əlaqədardır. Tarixən Azərbaycanın Mil, Muğan, Şirvan düzərində, Qarabağda, dağ rayonlarında qoyunçuluq təsərrüfatı ilə məşğul olan sahibkarlara dövlətin dəstəyi, maliyyə yardımları, yeni texnoloji vasitələrin tətbiqi, daxili və xarici bazarlarla əlaqələrin təkmilləşdirilməsi və güclənməsi qoyunçuluğun folklorumuzda poetik təcəssümünün göstəricisi kimi önəmli faktordur.

Azərbaycan xalq yaradıcılığında yüksək sənətkarlıqla təsvir və tərənnüm olunan peşə-məşğuliyyət sahələrindən biri də atçılıq olmuşdur. Qədim türklərə görə, at yer üzündə ən təmiz varlıqdır. Xalqımızın əski inancına görə, kim yuxuda at görsə, muradına çatar. "Kitabi-Dədə Qorqud" eposunda atla bağlı bir sıra atalar sözləri və deyimlər vardır: "At işləməsə, ər öyünməz", "At qulağı sağ olur", "At yeməyən acı otlar bitincə, bitməsə yeg" və s. [8, s. 19-20].

"Koroğlu" dastanında "At igidin qardaşıdır" poetik deyimi ilə vəsf olunur:

Yaz olanda dağa yollat,
Yay olanda ifçin nallat,
Qış olanda məxmər çullat,
At iyidin qardaşıdır. [9, s. 172]

Dastanlarımızda Duru ayğır, Şahbaz ayğır (Kitabi-Dədə Qorqud), Qırat, Dürat, Alapaça (Koroğlu), Boz at (Qaçaq Nəbi) və s. at adlarının işlənməsi atçılıqla bağlı məşğuliyyətin əski çağlara bağlı olduğunu nümayiş etdirir.

Tarixi-etnoqrafik mənbələrdə Azərbaycanın Qarabağ, Qazax, Şirvan, Quba bölgələrində yetişdirilən at cinslərindən bəhs edən maraqlı məlumatlar mövcuddur. Azərbaycanın hüdudlarından uzaqlarda da geniş şöhrət qazanan Şahbaz, Dilboz, Toxmaq, Ceyran, Şirvan at cinsləri dözümlülüyünə və çevikliyinə görə məşhur olmuşlar. Bir sıra beynəlxalq yarışlarda Qarabağ atları birinci yer tutmuşdur. Xüsusi ilxıçılar tərəfindən yetişdirilən atlar Rusiya, Fransa, Polşa, İngiltərə və digər Avropa ölkələrində yerli at cinslərinin yetişdirilməsində geniş istifadə edilmişdir. Elmi-texniki tərəqqinin inkişafı və cəmiyyətdə baş verən dəyişikliklər ilə əlaqədar olaraq,

təəssüf ki, atçılıq da məşğuliyyət sahəsi kimi aradan qalxmışdır. Lakin xüsusi fermer təssərüfatlarında atçılıq mərkəzləri fəaliyyət göstərir, təlimçilər (ilxıçılar) cins atlar yetişdirirlər. Ölkədaxili və beynəlxalq yarışlarda Qarabağ və Dilboz atlar ölkəmizin idman şərəfini ləyaqətlə qoruyurlar. Təsadüfi deyil ki, möhtərəm Cənab Prezident İlham Əliyev nüfuzlu qonaqlarla atçılıq mərkəzlərinə qonaq olur, ölkə rəhbərlərinə cins atlar hədiyyə edir. Bu min illərə bağlı köklərə sadiqliklə yanaşı, sahənin inkişafına da öz töfhələrini verir.

Dünya folklorunda peşə öyrənmənin və onun tətbiqi sahələri ilə bağlı xeyli maraqlı nümunələr vardır. Hələ qədim Şumer-Akkad, Misir, yunan, Çin, hind ("Pançatantra", "Kəlilə və Dimnə", "Bahari daniş" və s.), ərəb ("Min bir gecə", "Sindibadnamə" və s.), fars ("Min bir gündüz" və s.), skandinav, alman və digər xalqların mifoloji mətnlərində yer alan çoxsaylı əsərlərdə peşə hazırlığının müxtəlif aspektlərini, təməllərini özündə ehtiva edən çoxsaylı nümunələrlə qarşılaşmaq olar. "Enmerkar və Aratta hökmdarı" adlı qədim şumer dastanında əkinçilik, bu peşənin cəmiyyətdə və dövlət quruculuğunda əhəmiyyəti, insanların maddi-mənəvi inkişafında rolu və s. barədə yüksək əxlaqi-tərbiyəvi ideyalar əks olunmuşdur. Hətta antik yunan və Roma mifologiyasında müxtəlif peşələrin öz hamisi – Allahı var idi. Məsələn, yunan mifologiyasında allahlar panteonunda Artemida ovçuluğun, Demetra əkinçiliyin, Hermes ticarətin, Hefest dəmirçiliyin, Afina hərb, incəsənət və sənətkarlığın, Dionis üzümçülük və şərabçılığın tanrıları hesab olunurdular. Yunan mifoloji düşüncəsində yer alan Araxna haqqında əsatirdə Afina Araxnaya (yunan dilindən tərcümdə hörümçək mənasında) toxuculuq sənətinin incəliklərini öyrədir. Araxna hər şeyi öyrənəndən sonra təkkəbbürlü birinə çevirilir və ustadını yarışa çağırır. Afina onu bundan çəkindirməyə çalışsa da, dikbaş Araxana onu dinləmir. Yarış nəticəsində Afina qalib sayılır və o, Araxnanı hörümçəyə çevirir [15]. Əsatir ustanın üzünə ağ olmanın necə cəzalandırıldığını göstərən bu faktla bir növ öyrənəni tənbehləyir, ustanın "mütləq" səlahiyyətlərini bir daha göz önünə gətirir. Əfsanə peşə etikası baxımından mühüm didaktik funksiya ilə yanaşı, həm də mənəvi təvazökarlığın və ustad sadiqliyinin zəruriliyini vurğulayır. Bununla yanaşı, peşə hazırlığının təməlləri ilə bağlı məlumatları özündə ehtiva etməsilə də bu günün insanına dəyərli informasiyalar ötürür.

Folklorda peşə hazırlığı təcrübə ilə öyrənmə, mentorluq, varislik və ustad-şagird ənənəsi nəsildən-nəslə ötürülən biliklərin üzərində cəmlənir. Bu da xalqın zəngin sənətkarlıq keyfiyyətləri ilə yanaşı, iş və şəxsi inkişaf dəyərlərini ortaya çıxaran mühüm amillərdən biridir. Bu gün peşə hazırlığı bəlli müəssisələrdə təsdiq olunmuş proqramlarla bu sahədə səriştəsi olan mütəxəssislər tərəfindən həyata keçirilsə də, vaxtilə "Əti sənin, sümüyü mənim" prinsipinə sadiq valideynlərin "əli çörəyə çatsın" paradiqmasının şərtləri daxilində həyata keçrilirdi. Məsələn, "Dərzinin şagirdi" [5, s. 261] adlı nağılda şagird ustanın evində ancaq dərziliyin incəliklərini öyrənmir. O həm də ona peşə öyrətmənin qarşılığında ustasının bütün ev işlərini

görür, qonaqlarını qarşılayıb yola salır, ustanın fikrincə, "bərkə-boşa" düşür və s. Qeyd edək ki, əksər folklor nümunələrində ustanın yanına peşə öyrənmək üçün göndərilən uşaqlar üstün intellektual potensialları ilə fərqlənirlər. Kasıb valideynlər belə uşaqların sənət öyrənərək "əlinin çörəyə çatacağına" inandıqları üçün ustaya etibar edir, onun bütün təkliflərini yerinə yetirirlər. Usta yanına göndərilən "korazehin" uşaqlar nə öyrədənin, nə də cəmiyyətin qarşısında rəğbət qazana bilmirlər. Məsələn, "Oxxayla Əhmədin" [6, s. 204] nağılında usta şagirdini illərlə öyrədir, sənətin sirlərini səbirlə aşılayır. İmtahan vaxtı çatanda isə şagirdin hazırlıqsız olduğunu görüb əziyyətinə heyfsilənir və onu qovur. Beləliklə, hazırki peşə hazırlığında olduğu kimi təlimin son günü təşkil olunan imtahanda uğur qazanan müdavim (o zaman şagird) gələcək əmək fəaliyyətini bir şəkildə təyin etmiş olur. Maraqlısı budur ki, folklor nümunələrində ustad yanına gətirlən şagird (şəyird) mütləq usta tərəfindən ilkin yoxlamadan keçirilir, əgər şagirdin "qabında bir şey yoxdursa", usta onu qəbul etmirdi. Bu gün də peşə hazırlığına cəlb olunarkən müdavimlər bəsit şəkildə olsa da, müsahibə edilir, peşəyə uyğun olub-olmamaları yoxlanılır.

Nağıl və dastanlarda peşə hazırlığının strukturu bugünkü kimi nizamlı olmasa da, hansısa qaydalara tabe olduğu aydın görsənir. Peşə sahibləri cəmiyyətdə kifayət qədər mötəbər adam hesab edilidikləri üçün insanlar arasında müəyyən nüfuz qazanır, cəmiyyətdə rəğbətlə qarşılanırlar. Ona görə də illərlə ustanın yanında qalan şagird təkcə sənət öyrənmir, cəmiyyətdə davranış qaydalarını, ədəb-ərkan məsələlərini, böyük və kiçiklərlə münasibətlərdəki ierarxik ənənələrə də yiyələnir. Bununla da, bu günün öyrənəni sabahın peşəkarı kimi cəmiyyətdə özünə mövqe qazanmış olur. Usta-şagird varislik ənənəsində və eləcə də cəmiyyətin peşə sahibinə münasibətində qeyd-şərtsiz inam, etimad bütün şifahi mənbələrdə öz əksini tapmışdır. Peşənin sirlərini müdavimə aşılayan usta bir qayda olaraq onu sınaqdan keçirir. İmtahandan yaxşı çıxan şagirdlər ustanın və cəmiyyətin yanında nüfuz əldə edə bilirlər və tədricən özləri də usta mövqeyinə yüksəlirlər. Şifahi xalq nümunələrində, adətən, öyrədənlə öyrənən arasında yaxın bir ünsiyyət və ürək həmdəmliyi yaranır. Buna görə də peşəni ustasından üstün öyrənsə də, heç bir şagird bunu xüsusi bir hal kimi dəyərləndirmir. Elə buradan da xalq arasında "Ustadına kəm baxanın gözlərinə ağ damar" və buna bənzər çoxsaylı deyimlər geniş yayılmışdır.

Maraqlıdır ki, peşə hazırlığı və ya müxtəlif peşələrdən bəhs edən nağılların əksəriyyəti məişət nağıllarıdır. Fikrimizcə, əsl peşəkarın peşəsinin gücüylə çıxış etdiyi yerdə hansısa qeyri-adi qüvvəyə ehtiyac duyulmur. Belə insanların daha çox məişət nağıllarının ana xəttində əsas obraz kimi çıxış etmələri də onların daxili gücünə və peşəkarlıqlarına olan inamla bağlıdır. Bu baxımdan "Dəmirçinin əhvalatı", "Şahın tənbəl qızı", "Padşahla rəssam", "Şah Abbasın sənəti" və s. nağıllar səciyyəvi motivlərlə diqqəti cəlb edir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 452-464*

"Üç sənətkarın nağılı" adlı məişət nağılında bənna, zərgər və dülgər obrazları canlandırılır. Bir-biri ilə dost bu üç sənətkar hərəsi öz peşəsinin üstünlüklərindən bəhs edərək öyünürlər. Onların söhbətlərini eşidən şah qırx gün ərzində dediklərini təsdiq etməyi əmr edir. Ustaların düzəltdikləri şeylər çox qeyri-adi olsalar da, hər hansı bir sehrli güc daşımırdılar. Bu əşyaların qeyri-adiliyi isə onları yaradan ustaların peşəkarlığı, peşələrinin sirlərini dərindən bilmələri, dövrləri üçün heç də hamının xəbərdar olmadığı texnologiyalara yaxından bələdlikdən irəli gəlirdi [4, s. 155]. Nağılın əsas qəhrəmanları peşələri ilə hədər yerə öyünmədiklərini sübut etməklə həm də insanı öz işinin və peşəsinin sirlərini dərk edib öyrənməyə çağırır. "Məişət nağıllarından onun yarandığı dövrün məişət xüsusiyyətlərini də müəyyən etmək mümkündür. Xalqın yaşayış tərzi, həyatı və s. kimi xüsusiyyətlər barədə məlumat vermək baxımından məişət nağılları olduqca dəyərlidir. "Üç sənətkarın nağılı"nın yarandığı dövrdə bəzi peşə və sənət sahələrinin – zərgərlik, bənnalıq və dülgərliyin həmin dövr üçün əhəmiyyətli sənət sahələri olduğunu müəyyən etmək mümkündür" [7, s. 125]. Qeyd edək ki, Qrimm qardaşlarının topladıqları nağıllar içərisində bu nağıla bənzər süjeti ilə diqqət çəkən "Üç hərbi cərrah" (The three army-surgeons) nağılı var [16]. Fikrimizcə, sənət, peşə adamının öz işi ilə öyünməsi, qeyri-adi yaradıcılıq gücünə sahib olması təkcə milli deyil, eləcə də dünya xalqlarının folklorunda geniş yayılan süjet kimi diqqətəlayiqdir.

"Baftaçı Şah Abbas" nağılında peşə öyrənmənin əhəmiyyəti çox ibrətamiz motivlərlə əks olunmuşdur. Xalq arasında çox geniş yayılmış və bir neçə variantı olan bu nağılda peşəyə, sənətə hörmət, onun əhəmiyyəti qabarıq şəkildə əks olunmuşdur. Təsadüfi deyildir ki, bu nağılın motivləri əsasında dünya şöhrətli bəstəkar Üzeyir Hacıbəyov "Şah Abbas və Xurşid banu" operasını yazmışdır. Nağılda naxırçı qızına aşiq olan Şah Abbas ona elçi göndərir. Qız elçilərdən şahın peşəsini, sənətini xəbər alanda onlar şahın peşəsinin şahlıq olduğunu desələr də, qız bunu qəbul etmir. Məcbur qalan Şah müxtəlif peşələr içərisindən özünə bafataçılığı ("Şah Abbasın sənəti" adlı variantda keçəçiliyi) seçir. "Bafta "güləbətin və ya ipək saplardan toxunan qaytan" deməkdir, fars dilindəki "bofte" – toxumaq sözündən yaranmışdır. Qeyd edək ki, "Baftaçı" sözü isə paltara bafta üsulu ilə bəndləmə naxış salınması peşəsini ifadə edir. Keçmişdə Azərbaycanın bir sıra şəhərlərində (Təbriz, Şamaxı və s.) "sırımakeş" adlanan peşəkar baftaçılar fəaliyyət göstərirdilər. Onlar qızıl və gümüşdən çəkilmiş metal tellərin ipək sapa sarınması yolu ilə hazırladıqları və ya satın aldıqları güləbətin sapla bafta toxuyur, yaxud güləbətin tikmələrdə işlədirdilər. Peşəkar ustalar baftanı dəzgahda güləbətin, ağ, çəhrayı, narıncı, qırmızı, al qırmızı və sair rəngli ipək (keci) sapdan istifadə etməklə enli və ensiz ("dar bafta") formada toxuyurdular" [14]. Nağılda şah kamil usta sayəsində baftaçılığı iki gündə öyrənir və sevdiyi qıza qovuşur. Süjetin aparıcı xəttində duran əsas fikir – əsl insan mütləq bir peşə, sənət sahibi olmalıdır ideyası naxırçı qızının uzaqgörənliyini və dünyəvi həqiqəti əks etdirir. Başqa sözlə, Şah Abbas baftaçılığı öyrənməklə yalnız

özünü ölümün pəncəsindən xilas etmir. O, insan əti yeyən böyük bir cinayətkar dəstənin izinə düşür və cəmiyyəti bu bəladan qurtarır. Nağılın müasirliyi də məhz bu ideya ilə özünü təsdiqləyir. Osmanlı sultanı II Əbdülhəmidin (1842-1918) xeyriyyəçi əməlləri nağılın müasir ruhu ilə səsləşir. Avropada "Qızıl Sultan" adlandırılan II Sultan Əbdülhəmid asudə vaxtlarında xarratlıqla məşğul olur, ağac və taxta məmulatlardan zərif əşyalar düəzldərək satdırır, pulunu kasıb əhaliyə paylayırdı. Bu cür faktlar onu göstərir ki, işindən, vəzifəsindən asılı olmayaraq cəmiyyətin hər bir üzvü müəyyən peşəyə yiyələnməklə sosial ədalətin və nizamın qorunmasında rol oynayır. Yaxud onun oğlu şahzadə Mehmet Abdulqadir Əfəndi (1878-1944) Osmanlı sülaləsi sürgün ediləndə Budapeştdə skripka çalmaqla güzəranını təmin etmişdir.

Maraqlıdır ki, nağılın "Şah Abbasın sənəti" varinatında [2, s. 306-311] Şah Abbasın keçəçiliyi öyrəndiyi şəhər "sənətkarlar şəhəri" adlanır. Bu şəhərdə öyrəndiyi peşənin vasitəsi ilə o, səfərə çıxdığı başqa bir şəhərdə cinayətkar dəstə ilə üzləşir və onları cəzalandırır.

Dastanlarda peşələrlə bağlı məqamlar nağıllardakı ilə müəyyən paralellik təşkil etsə də, xüsusilə qəhrəmanlıq dastanlarında müəyyən fərqli çalarlar gözə dəyir. Folklorumuzun ən qədim nümunələrindən birində "Kitabi-Dədə Qorqud" dastanında müxtəlif peşələrin adlarını görmək mümkündür: aşpazlıq, ovçuluq, çobanlıq, ilxıçılıq, tacirlik, şərabçılıq, əczaçılıq və s. Dastanda bu peşə nümayəndələrinə münasibət birmənalı deyil. Belə ki, feodalizmin sərt ənənələrini özündə qoruyan bahadırlıq dastanında təbəqələşmə – varlı və kasıb zümrəsinin ayrılması peşə insanına da münasibətin bu standartlarda olduğunu üzə çıxarır.

Dastanda Qaraca Çoban surəti mənəvi zənginliyi və igidliyi ilə diqqəti çəkir. Dastanın "Salur Qazanın evinin yağmalandığı boyu"nda Salur Qazan Qaraca Çobanı kafirlərlə döyüşə aparmaq istəməməsini belə izah edir: "Qazan fikir eylədi, aydır: "Əgər çobanla varacaq olsam, Qalın Oğuz bəgləri bənim başıma qaqınc qaxarlar; çoban bilə olmasa, Qazan kafiri alamazdı, deyərlər" – dedi". Qazana qeyrət gəldi. Çobanı bir ağaca sara-sara möhkəm bağladı; eyləndi, yüriyü verdi" [8, s. 43-44]. Yağı düşmənlə döyüşdə iki qardaşı şəhid olan cəsur çobanı göstərdiyi igidliyə görə Qazan xan əmiraxur vəzifəsinə təyin edir.

"Koroğlu" dastanının "Toqat səfəri" qolunda dəliləri incik saldığına görə Nigar xanım əkinçilik və arıçılıq peşələrinin timsalında sadə peşə adamlarının fikrini bilməyi tövsiyə edir. Müdrik səciyyəsi ilə dərin məna daşıyan bu tövsiyə rəmzi xarakter daşımır. Nigar xanımın bu ağbirçək tövsiyəsində bütün peşə və məşğuliyyətlərə hörmət və məhəbbət ifadə olunur:

Kəl qoşub kotan əkmiyən,
Nanın süfrəyə tökməyən
Arının qəhrin çəkməyən
Balın qədrini nə bilər? [9, s. 35]

Hələ “Alı kişi” qolundan başlayaraq, sadə peşə insanının parlaq obrazını görmək olar. Belə ki, Rövşənin – Koroğlunun atası öz peşəsinin mahir bilicisidir. O Hasan xana təqdim etdiyi atların bütün xüsusiyyətlərini (gələcəkdə bu atlar – Qırat və Dürat Koroğlunun ən yaxın silahdaşları olacaqdır) yaxşı bilir. Lakin illərdir qapısında xidmət edən bu peşəkara inanmayan xan onu dünya işığına həsrət qoyur. Hadisələrin sonrakı inkişafı göstərir ki, Alı kişi bir ilxıçı kimi əsl el ağsaqqalını təmsil edir və düşüncələrində yanılmır. Dastanın bütün qollarında el arasından çıxmış qəhrəmanlara – dəlilərə böyük ehtiram hissi ilə yanaşır. “Durna teli” qolunda Koroğlunun əsir düşən dəliləri üçün göz yaşı tökən biçinçi buna bariz nümunədir [9, s. 132-133].

“Abbas və Gülgəz” dastanında da peşə və sənətlə bağlı məqamlar diqqəti çəkir. Abbasın atası ölüm ayağında arvadını yanına çağırıb deyir: “Axır nəfəsimdir. Ölürəm. Kiçik oğlum Abbas qabiliyyətli uşaqdır. Hansı sənəti xoşlasa, o sənəti öyrənər” [2, s. 108]. Göründüyü kimi bu epizod övladın tərbiyəsi, onun gələcəkdə bir peşə öyrənməsinin məsuliyyətini dərk edən ata vəsiyyəti kimi əxlaqi-ibrətamiz səciyyə daşıyır.

Dastanda yer alan çoban obrazı da sələfləri kimi yaxşı insanların dar ayaqda köməyinə çatan xeyirxah peşə sahibi kimi təsvir olunur. O, çoban olsa da, sazın-sözün qiymətini yaxşı bilir. Aşıq Abbası öldürmək istəyən aşıqlara qarşı çıxıb deyir: “Abbas, sən aşıqsan ki, aşıqsan. Xalis haqq aşığısan. Sözünü arxayın oxu! Sənə bir söz desələr, hamısını qıracağam” [2, s. 108]. Bu epizodda çoban obrazının bir tərəfdən cəsarəti və qorxmazlığı ifadə olunursa, digər tərəfdən onun aşğa, aşıq sənətinə hörmət və ehtiramı əks olunur.

Nağıl və dastanlarda qəhrəmanın hansı peşəyə sahib olması onun xarakterinin, qəhrəmanlıq yolunun və uğur qazanmasının bir hissəsi kimi təqdim olunur, peşələr təkcə dolanışıq vasitəsi deyil, həm də şəxsiyyətin formalaşması və cəmiyyət içində layiqli yer tutmasının əsas şərtlərindən biri kimi qiymətləndirilir. Bu janrlar vasitəsilə xalq, gənc nəslə əməksevərlik, peşəyə sədaqət, halal zəhmətə hörmət kimi dəyərləri aşılamağa çalışmışdır.

Aparılan araşdırma göstərir ki, Azərbaycan şifahi xalq ədəbiyyatında peşələrə yalnız funksional deyil, həm də mənəvi-estetik aspektdən yanaşılmış, peşə hazırlığının ilkin psixoloji, mənəvi və əxlaqi təməli bu ədəbi nümunələrdə öz əksini tapmışdır. Bu baxımdan, xalq ədəbiyyatının öyrənilməsi müasir peşə təlimi və tərbiyəsi üçün də aktual metodoloji əsaslar təqdim edə bilər.

Bugünkü əmək bazarında peşə hazırlığının vacibliyi xüsusilə vurğulanmalıdır. Çünki əmək bazarı sürətlə dəyişir, texnologiyalar inkişaf edir və yeni peşələr yaranır. Bununla yanaşı, bir çox ənənəvi işlər azalır və ya sıradan çıxır. Bu səbəbdən, peşə hazırlığı yalnız iş tapmaq üçün deyil, həm də karyera inkişafını davam etdirmək üçün vacibdir. İnsanların yeni bacarıqlar öyrənməsi, bazardakı

tələblərə uyğunlaşması və davamlı təhsil alması son dərəcə əhəmiyyətlidir. Peşə hazırlığınım qısa müddətli olması onun çevikliyini də təmin edir.

## ƏDƏBİYYAT

1. Atalar sözü. Tərtib edəni: C.Bəydili. Bakı: Öndər, 2004, 264 s.
2. Azərbaycan dastanları. Tərtib edənlər: M.Təhmasib, Ə.Axundov. Beş cilddə. II cild. Bakı: Lider nəşriyyatı, 2005, 448 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə, III cild. Bakı: Şərq-Qərb, 2006, 672 s.
4. Azərbaycan nağılları – Naxçıvan. Bakı: MBM, 2005, 296 s.
5. Azərbaycan nağılları. Tərtib edən: Ə.Axundov. Beş cilddə, I cild. Bakı: Şərq-Qərb, 2005, 360 s.
6. Azərbaycan nağılları. Tərtib edən: Ə.Axundov. Beş cilddə, V cild. Bakı: Şərq-Qərb, 2005, 304 s.
7. Əsgərova N. Məişət nağıllarında obrazlar sistemi. // "Naxçıvan" Universiteti. Elmi əsərlər. – 2019, – № 1. – s. 135-140
8. Kitabi-Dədə Qorqud (əsli və sadələşdirilmiş). Tərtib edən: S.Əlizadə. Bakı: Öndər nəşriyyatı, 2004, 376 s.
9. Koroğlu. Bakı: Lider nəşriyyatı, 2005, 552 s.
10. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə. Bakı: "Turan" Nəşrlər Evi, 2002, 680 s.
11. https://anl.az/down/meqale/baki_xeber/2015/iyun/05.htm
12. https://archive.org/details/divisionoflabori0000durk/page/n7/mode/2up
13. https://e-qanun.az/framework/39275
14. https://intangible.az/front/az/aboutExample/16498
15. https://www.wikimedia.az-az.nina.az/Araxna_(mifologiya).html
16. https://www.worldoftales.com/fairy_tales/Brothers_Grimm/Margaret_Hunt/The_Three_Army-Surgeons.html#gsc.tab=0

**Rəyçi: filologiya elmləri doktoru Avtandil Məmmədov (Ağbaba)**